**UOT: 338.45, 339.5, 636/637**

# AZƏRBAYCANDA İPƏK MƏHSULLARININ İXRAC POTENSİALININ ARTIRILMASI İSTİQAMƏTLƏRİ

**Səbinə İzzət qızı Vəliyevə, i.ü.f.d., dosent**

***Aqrar Tədqiqatlar Mərkəzinin doktorantı***

***e-mail: sabina_valiyeva@mail.ru***

***Xülasə***

*Azərbaycan Respublikasında ənənəvi sahələrdən olan ipəkçiliyin inkişafı istiqamətində son illər mühüm tədbirlər həyata keçirilmiş, dövlət proqramı qəbul edilmiş, 2025-ci ilədək ölkədə yaş barama istehsalı həcminin 6 min tona çatdırılması hədəflənmişdir. Görülən tədbirlər nəticəsində 2019-cu ildə yaş barama istehsalı 25 faiz, xam ipək ixracı isə 2,8 dəfə artmışdır. Məqalədə də respublikamızda barama istehsalının və ipək ixracının hazırkı vəziyyəti qiymətləndirilir, bu sahədə yeni emal müəssisinin yaradılması, istehsalın və ixracın artırılması ilə bağlı müvafiq təkliflər verilir.*

***Açar sözlər:*** *kənd təsərrüfatı, ipək, barama, emal, ixrac.*

## Giriş

Azərbaycanda ipəkçilik qədim tarixə malik olsa da, müstəqillik dövrünün əvvəllərində bu sahədə istehsal həcminin kəskin azalması baş vermişdir. Belə ki, 1985-ci ildə Azərbaycanda 5,5 min ton barama istehsal olunurdusa, 2015-ci ildə ölkə üzrə cəmi 236 kq barama istehsal edilmişdir. Azərbaycanda baramaçılığın və ipəkçiliyin inkişafının yeni mərhələsi isə 2016-cı ildən etibarən başlamışdır. Bu tarixdə ölkədə baramaçılığın inkişafı istiqamətində mühüm qərarlar qəbul edilmişdir. 2016-cı ildə qəbul olunan "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə barama istehsalının 2020-ci ilə kimi 1000 dəfə artması hədəfi əksini tapmışdır (2). 2017-ci ildə təsdiqlənən baramaçılığın və ipəkçiliyin inkişafına dair dövlət proqramında isə 2025-ci ilədək yaş barama istehsalı həcminin 6 min tona çatdırılması nəzərdə tutulmuşdur (1). Ölkədə barama istehsalının artması isə öz növbəsində ipək məhsulları üçün böyük ixrac potensialı yaradacaqdır. Lakin 2025-ci ilə kimi qarşıya qoyulan hədəfə nail olunması üçün baramaçılığın və ipəkçiliyin inkişafı ilə bağlı bir çox problemlərin həlli aktuallığı yüksəlir. Məqalədə Azərbaycanda barama istehsalı və ipək ixracı ilə bağlı mövcud vəziyyət təhlil edilir. Həmçinin ipək emalının dərinləşdirilməsi ilə bağlı müvafiq təkliflər də verilir.

**Baramaçılığın və ipəkçiliyin inkişafına qısa baxış**

Tarixən Azərbaycanda ipəkçiliklə məşğul olunsa da, bu sahənin genişmiqyaslı inkişafı ulu öndər Heydər Əliyevin rəhbərliyi altında 1971-ci ilin martında Azərbaycan KP MK və Nazirlər Sovetinin “Azərbaycan SSR-də ipəkçiliyi inkişaf etdirmək tədbirləri haqqında” qərar qəbul etməsi ilə başlamışdır. Ötən əsrin 70-80-ci illərində Azərbaycanın 60 rayonunu əhatə edən baramaçılıq şəbəkəsi yaradılmışdır. Nəticədə ölkədə barama istehsalı 1969-cu ildəki 3569 tondan 1986-cı ildə 5678 tona yüksəlmiş və Azərbaycan yaş barama istehsalının həcminə görə dünyada ilk onluqda təmsil olunmuşdur. Lakin müstəqilliyin ilk illərində ölkədə yaşanan problemlər kənd təsərrüfatının digər sahələri kimi baramaçılığa da öz mənfi təsirini göstərdi. Respublikamızda olan 2 damazlıq-ipəkçilik stansiyası, 7 barama toxumu zavodu, 30-a yaxın rayonun baş barama qurutmaxanası, 80-ə yaxın barama tədarükü və ilkin emalı məntəqəsi öz fəaliyyətini dayandırmışdır.

2016-cə ildən etibarən isə ölkədə baramaçılığın inkişafı istiqamətində mühüm qərarlar qəbul olunmuş, sahəyə dövlət dəstəyi gücləndirilmişdir. Barama istehsalı ilə məşğul olan şəxslərə emal müəssisələrinə təhvil verdikləri baramanın hər kiloqramına görə 5 manat məbləğində subsidiyanın verilməsi bu sahəyə marağı artırmışdır (9). Həyata keçirilən tədbirlər nəticəsində Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafı yeni keyfiyyət mərhələsinə yüksəlmişdir. Ölkədə ipəkçiliyin inkişaf etdirilməsi üçün böyük potensialın mövcud olduğu nəzərə alınaraq, 2016-cı ildən ipək istehsalının müasir infrastrukturunun yaradılmasına başlanılmışdır. Görülən tədbirlər nəticəsində 2019-cu ildə 643,7 ton yaş barama istehsal edilmiş və 2018-ci illə müqayisədə məhsul istehsalı 25,3 faiz artmışdır (5).

**Diaqram 1. Azərbaycan Respublikasında barama istehsalı, ton**




***Mənbə:*** *3; 5; 8.*

Araşdırmamız göstərir ki, qarşıdakı illərdə də barama istehsalının artması üçün ciddi zəmin yaranmışdır. Bu baxımdan baramaçılığın yem bazasının möhkəmləndirilməsi məqsədilə dövlət vəsaiti hesabına 2016-2019-cu illər ərzində Çin Xalq Respublikasından 4,5 milyon ədəd calaq edilmiş tut tingləri tədarük edilərək, bölgü əsasında əvəzi ödənilmədən baramaçılıqla məşğul olan rayonlara paylanılması da müsbət addımdır. Çünki bu tədbirin özü də növbəti illərdə barama istehsalının artırılmasına səbəb olacaqdır.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"nə (2) əsasən də qarşıdakı illərdə həm sosial, həm də iqtisadi cəhətdən əhəmiyyəti nəzərə alınaraq barama istehsalı genişləndiriləcəkdir. Bu baxımdan, dövlət proqramının həyata keçirilməsi ümumilikdə ölkədə ipəkçiliyin və ona xidmət edən alt sahələrin kompleks inkişafı istiqamətində aparılan işlərin daha da gücləndirilməsinə təkan verəcəkdir.

**İpəkçılık məhsulları ixracının mövcud vəziyyəti**

Azərbaycandan həm xam ipək (eşilməmiş) həm də ipək tullantıları (açılmaq üçün yararsız barama, əyirmə tullantıları və didilmiş xammal daxil olmaqla) ixrac edilir. 2019-cu ildə xam ipək (HS kodu 500200) ixracı 725 min ABŞ dolları, ipək tullantıları (HS kodu 500300) ixracı 65 min ABŞ dolları təşkil etmişdir (4; 8.). 2018-ci illə müqayisədə 2019-cu ildə xam ipək ixracı 2,8 dəfə, ipək tullantıları ixracı 2,1 dəfə artmışdır.

**Diaqram 2. Azərbaycan Respublikasından ipək ixracı, min ABŞ dolları**




***Mənbə:*** *3; 8.*

Qeyd edək ki, 2017-ci ildə Azərbaycandan xam ipək ixrac olunmamışdır. Baramaçılığın inkişafı ilə əlaqədar bu məhsulun ixracına 2018-ci ildən başlanılmışdır.

2019-cu ildə isə Azərbaycandan həm də daraqağzı ipəkdən hazırlanan parçalar, tərkibində 85% və daha çox ipək sap və ya ipək tullantıları olan daraqağzı ipəkdən başqa digər parçalar, ipək saplardan şallar, şarflar, duvaqlar və sair analoji məmulatlar da ixrac olunur. Amma hazırda bu məhsulların qeyri-neft ixracında payı cüzidir.

2019-cu ildə Azərbaycandan xam ipək isə əsasən İran İslam Respublikasına (425 min ABŞ dolları), Türkmənistana (191 min ABŞ dolları) və Türkiyəyə (108,5 min ABŞ dolları) ixrac edilib (4). İpək tullantıları isə Türkiyəyə ixrac olunur. Ölkəmizdən ipək ixracı "Azəripək" MMC tərəfindən reallaşdırılır (10).

Onu da qeyd edək ki, ipək dünya toxuculuq sənayesi malları bazarının yalnız 0,2 faizini təşkil etməsinə baxmayaraq, ipəkçilik dünyanın 30-dan çox ölkəsində yayılmışdır (1). Dünya üzrə xam ipək istehsalının 84 faizi, ixracın isə 54,1 faizi Çin Xalq Respublikasının payına düşür (11). Dünyada ipək istehsalının həcminə görə Hindistan ikinci, Özbəkistan Respublikası isə üçüncü yerdə qərarlaşmışdır. Dünya bazarında ipək məhsullarına tələbatın artması nəticəsində onun qiymətində yüksəlmə meyli müşahidə olunur.

**İpəkçilikdə ixracın inkişaf istiqamətləri**

Azərbaycanda barama istehsalı və ixracı üzrə gələcək strategiya Strateji Yol Xəritəsində (2) əksini tapmışdır. Qısamüddətli dövr üçün bu strategiya istehsalın xammal şəklində ixrac məqsədilə artırılmasından ibarət olacaqdır. Uzunmüddətli perspektivdə isə xam ipəyin emalı dərinləşdirilərək həm idxal əvəzlənəcəkdir, həm də ixrac artırılacaqdır.

Bu məqsədə nail olmaq üçün barama istehsalının stimullaşdırılması diqqətdə saxlanılacaq və bu istiqamət üzrə dövlət dəstəyinin forma və mexanizmləri müəyyənləşdiriləcəkdir (2).

Mütəxəssislərin qeyd etdiyi kimi, Azərbaycanın hazırlanmaqda olan uzunmüddətli qeyri-neft ixracı strategiyasında da aqrar sektora aid məhsullar mühüm yer tutacaqdır. Həmçinin postpandemiya dövründə kənd təsərrüfatı məhsullarının emalının dərinləşdirilməsi və ixracının şaxələndirilməsi istiqamətində fəaliyyətlər də gücləndirilməlidir (7). Bu istiqamətdə ipəkçilik sahəsinə önəmli yer ayrılması məqsədəuyğundur.

Strateji Yol Xəritəsində (2) xüsusi ilə vurğulanır ki, baramanın emalı sənayesinin inkişaf etdiriləcəkdir. Çünki hazırda “Şəki İpək”də üçnövbəli iş rejimində ildə 1300 ton yaş barama emal edilə bilər. Bu müəssisənin gücünü artıraraq 3 min ton yaş barama emalına çatdırmaq mümkündür. Amma 2025-ci ildə ölkəmizdə 6 min ton yaş barama istehsalı hədəfləndiyi üçün bu sahədə yeni müəssisənin yaradılmasına ehtiyac yaranacaqdır. Məhz 4 avqust 2017-ci il tarixində Azərbaycan Prezidenti İlham Əliyev Qax rayonunda barama, tütün və fındıq istehsalının inkişafı məsələlərinə dair keçirilən Respublika Müşavirəsində emal məsələsinə toxunaraq “Şəki İpək”in fəaliyyətinin daha da genişləndirilməli olduğunu qeyd etmişdir. Eyni zamanda dövlət başçısı “Bununla bərabər, biz gərək yeni ipək kombinatının yaradılması haqqında nəinki düşünək, artıq konkret addımlar ataq. Üç min ton emal gücündə olan yeni kombinatın yaradılması zəruridir” deyərək müvafiq dövlət qurumlarına tapşırıq vermişdir (6).

Şübhəsiz ki, yeni müəssisənin özəl investorlar tərəfin təşkili vacibdir. Qənaətimizcə, bu məqsədlə xarici investisiyanın cəlbi istiqamətində də iş aparılmalıdır. Digər tərəfdən xam ipəyin də emalı dərinləşdirilməsi və xarici bazarlara hazır məhsulları ixracının təşkili aktuallığını qoruyur. Nəzərə alaq ki, ipəkçiliyin inkişafı öz növbəsində xalçaçılığa da güclü təkan verəcək. Sahənin inkişafına dair Dövlət proqramında göstərildiyi kimi, baramaçılığın və ipəkçiliyin stimullaşdırılması ilə bağlı tədbirlər istehsalın artırılmasına, yüksəkkeyfiyyətli ipək məhsullarının ixracına, yeni iş yerlərinin açılmasına və kənd əhalisinin məşğulluğunun təmin olunmasına imkan yaradan sosial-iqtisadi məsələ kimi xüsusi əhəmiyyətə malikdir (1).

İpəkçiliyin inkişafı həm də xalçaçılığın inkişafına müsbət təsir göstərə bilər. Nəzərə alaq ki, Azərbaycanda toxunan ipək xalçaların da ixrac potensialı böyükdür.

## Nəticə

Apardığımız araşdırma nəticəsində aydın olmuşdur ki, qarşıdakı illərdə ipək məhsullarının ixrac potensialını artırmaq mümkündür. Çünki 2025-ci ilə kimi ölkədə barama istehsalının 6 min tona çatdırılması qarşıya məqsəd qoyulmuşdur. Hesablamamız göstərir ki, ölkəmizdə 6 min ton yaş barama tədarük olunsa bundan 600 tondan çox xam ipək alınacaqdır. 2019-cu ildə Azərbaycandan cəmi 19 ton xam ipək ixrac olunduğunu nəzərə alsaq, 2025-ci ildə ixracın əhəmiyyətli dərəcədə artırmaq üçün potensial yaranacaqdır. Şübhəsiz ki, yeni emal müəssisənin də yaradılması hesabına 2025-ci ildə ipək ixracının dəyəri 10 milyon ABŞ dollarından çox ola bilər.

Təhlillərimiz göstərir ki, baramaçılığın inkişafı ölkədə toxuculuq sənayesinin inkişafına və ipəkçilik rayonlarında yaşayan əhalinin həyat şəraitinin yaxşılaşmasına bir başa təsir edəcəkdir. Eyni zamanda, yeni texnologiya və biliklərin tətbiqi öz növbəsində ipək məhsulları ixracının genişlənməsinə və ipəkçiliklə bağlı digər sahələrin inkişafına (ipək xalça istehsalına və s.) təsir göstərməklə, bütövlükdə ölkənin ümumi iqtisadi potensialının güclənməsinə mühüm töhfə verəcəkdir.

Nəzərə alınmalıdır ki, ipəkçiliyin inkişafı ilə bağlı fəaliyyət gücləndirilərkən qarşıda duran əsas problemlərdən biri ipək məhsulları üçün yeni bazarların tapılması ola bilər. Onun üçün də tərkibində ipək olan hazır məhsulların istehsalını artırmaqla yanaşı ipək ixracının şaxələndirilməsi istiqamətində tədbirlər həyata keçirilməlidir.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı. /Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 27 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir/ - http://e-qanun.az/framework/37032
2. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi. /Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 06 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir/- http://www.president.az/articles/22110
3. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. “Azərbaycanın kənd təsərrüfatı”, Statistik məcmuə /2019. Bakı, 2019, 644 s.
4. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. “Azərbaycanın xarici ticarəti”, Statistik məcmuə /2019. Bakı, 2019, 216 s.
5. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Sosial, İqtisadi İnkişaf -12, Yanvar-Dekabr /2020. Bakı, 2020, 202 s.
6. Prezident İlham Əliyevin sədrliyi ilə barama, tütün və fındıq istehsalının inkişafı məsələlərinə dair Respublika Müşavirəsi keçirilib /-https://president.az/articles/24874
7. R.Z. Hüseyn, R.F. Hüseynov. Koronavirus pandemiyasının kənd təsərrüfatı məhsulları ixracına təsirinin qiymətləndirilməsi / Kənd Təsərrüfatının İnkişafı elmi-praktiki jurnal 2020, № 1
8. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi/- https://www.stat.gov.az/
9. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi/ - http://customs.gov.az/az/faydali/gomruk-statistikasi/
10. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi. http://agro.gov.az
11. Trademap- www.trademap.org
12. “İxrac icmalı” jurnalının 34-cü sayı, Yanvar 2020-ci il. http://iqtisadiislahat.org/store//media/documents/ixrac_icmali/2020/01_ExportReview-2020.pdf

*Ph.D., docent,* S.I. Valiyeva
*Doctoral student* of the Agro Researches Center

**Directions for increasing the export potential of silk products in Azerbaijan**

*Summary*

*Substantial measures have been implemented in the direction of developing sericulture, one of the traditional fields in the Republic of Azerbaijan, in recent years and a state program has been adopted. The production of wet cocoons in the country is aimed to reach 6000 tons in this program by 2025. As a result of the measures taken in 2019, the production of wet cocoons increased by 25 percent, and raw silk exports increased by 2.8 times. In this article, the author evaluates the current situation of cocoon production and silk export in our republic, make appropriate suggestions for the establishment of a new processing enterprise in this field, increasing production and export.*

***Keywords:*** *agriculture, silk, cocoons, processing, export.*

*Д.ф.э.н., доцент,* С.И. Валиева
*Докторант* Центра аграрных исследований

**Направления по увеличению экспортного потенциала продукции из шелка в Азербайджане**

*Резюме*

*В последние годы были предприняты существенные меры в направлении развития шелководства, одного из традиционных направлений в Азербайджанской Республике и была принята государственная программа. Производство коконов в стране намечено в этой программе к 2025 году достичь 6000 тонн. В результате мер, принятых в 2019 году, производство коконов увеличилось на 25 процентов, а экспорт сырого шелка увеличился в 2,8 раза.*

*В этом статье автор оценивает текущую ситуацию с производством коконов и экспортом шелка в республике, вносит соответствующие предложения по созданию нового перерабатывающего предприятия, увеличивая производство и экспорт.*

***Ключевые слова:*** *сельское хозяйство, шелк, коконы, переработка, экспорт.*